*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*10 (2) 2023*
https://doi.org/ 10.46868/atdd.2023.

*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received : 18.12.2022*
*Kabul tarihi |Accepted: 19.02 2023*
*Yayın tarihi |Published : 25.04.2023*

**Sayad Mehtizadə**

https://orcid.org/0000-0003-1798-693X
*Associate Professor, Baku State University, Faculty of History, Department of Ancient World and Medieval History, Azerbaijan, sayadmehdizada@bsu.edu.az*

*Atıf Künyesi | Citation Info*
Mehtizadə, S. (2023). Qərbi Avropa Səyyahlarının Gündəliklərində Azərbaycanın Orta Əsr Musiqisi və Təsviri Sənəti. *Akademik Tarih ve Düşünce Dergisi, 10* (2), 376-386.

# Qərbi Avropa Səyyahlarının Gündəliklərində Azərbaycanın Orta Əsr Musiqisi və Təsviri Sənəti

***Öz***

*Musiqi və təsviri sənət Azərbaycan milli mədəniyyətinin tərkib hissələrindən biri kimi XV-XVII əsrlərdə özünəməxsus cəhətlərə malik idi. Bu dövrdə xalq yaradıcılığı, ifaçılıq sənəti və aşıq yaradıcılığı formasında inkişaf edən musiqi sənəti yerli ənənələrlə yanaşı, İslam və İran musiqisinin də təsirini özündə əks etdirirdi. Avropalı səyyahların gündəliklərində saray musiqisi, hərbi musiqi, musiqi alətləri və s. haqqında məlumatlar mövcuddur. Bu məlumatlardan musiqinin Azərbaycan xalqının gündəlik həyatında, bayram və ziyafətlərində mühüm yer tutduğu aydın olur. Təsviri sənətin qollarından olan daşişləmə sənətinə mənbələrdə geniş rast gəlinir və onun əsas növü həkkaklıq sayılır. Azərbaycanda orta əsrlərdə dekorativ-tətbiqi sənət növləri arasında mozaika da geniş yayılmışdı. Avropalı yazıçılarının daha çox məlumat verdiyi digər sənət sahəsi də zərgərlikdir. Azərbaycanda dekorativ sənətin ümumi sahələri sırasında bədii parça istehsalı və xalçaçılığı da qeyd etməliyik, çünki bu sahələr orta əsrlərdə yüksək inkişaf etmiş sənət sahələri hesab olunurdu. Beləliklə, Azərbaycan mədəniyyətinin tərkib hissəsi kimi incəsənətin müxtəlif sahələri həm regional ənənələri qoruyub saxlamaqla, həm də Ümumislam və Ümumşərq təsirini özündə daşımaqla sinkretik mədəniyyətin inkişafında mühüm rol oynamışdır.*

***Açar sözlər:*** *Avropa, Səfəvilər, musiqi, xalçaçılıq, təsviri sənət*

# Medieval Music and Fine Art of Azerbaijan in the Diaries of Western European Travelers

***Abstact***

*Music and fine arts were one of the integral parts of the Azerbaijani culture and had special features in the XV-XVII centuries. During this period, music that developed in the form of folk and ashig (minstrel) creativity had the effect of Islamic and Iranian music along with local traditions. In the diaries of European travelers information on palace music, military music, musical instruments etc. is found. Stone processing among fine arts has been widely found in the sources, and engraving can be considered the main type of it. In Azerbaijan, medieval mosaics were widely spread among decorative-applied arts. Jewelry is another art type that European authors provide relatively broad information. We should emphasize the production of artistic textile and carpet weaving among the widespread areas of decorative-applied art in Azerbaijan, because these areas were accepted as highly developed ones of art in the Middle Ages. Thus, various areas of art as an part of Azerbaijani culture played an important role in the development of the synchretic culture, by preserving both local and regional traditions and by carrying Pan-Oriental and Pan-Islamic influence.*

***Keywords:*** *Europe, Safavids, music, carpet weaving, fine arts*

## Giriş

*Musiqi* Azərbaycan milli mədəniyyətinin tərkib hissələrindən biri kimi XV-XVII əsrlərdə özünəməxsus cəhətlərə malik idi. Bu dövrdə xalq yaradıcılığı, ifaçılıq sənəti və aşıq yaradıcılığı formasında inkişaf edən musiqi sənəti yerli ənənələrlə yanaşı, İslam və İran musiqisinin də təsirini özündə əks etdirirdi (Babayeva, 2017). Həmin dövrün əsas musiqi alətləri nağara, tütək, saz, kamança, ney, ud, zurna və s. idi. Bir sıra qəzəllərə musiqi bəstələnmişdi.

XV-XVII əsrlərdə musiqinin inkişafı ilə bağlı məsələlərə toxunan çox az sayda ədəbiyyat vardır ki, onlardan biri Ella Zonnisin «Klassik İran musiqisi» adlı əsəridir. Müəllif əsərində Səfəvilər dövlətinin mədəni inkişaf məsələlərini təhlil edərkən nədənsə türk faktorunu nəzərə almır. Bu isə problemin obyektiv təhlil edilməsinə mane olan amildir. Səfəvi dövlətinin mədəni-mənəvi inkişafı prosesində türk faktorunun olması danılmazdır. Əsərdə İslam dininin guya musiqini qadağan etməsi barədə fikri üstünlük təşkil edir, lakin bununla da razılaşmaq mümkün deyil (Dadaşova, 2003).

Çünki Quranda musiqinin haram olması ilə bağlı heç bir ayə yoxdur. Doğrudur, bəzi Səfəvi hökmdarları, xüsusilə Şah Sultan Hüseynin musiqini qadağan edən fərmanları olmuşdur, lakin bunu İslam dininə şamil etmək yanlış olar. Səfəvi şahlarının bəzi dövrlərdə musiqini qadağan etməsinə baxmayaraq, musiqi sənəti inkişaf etməkdə idi. Bu dövrdə Azərbaycan əhalisinin həyatında musiqinin rolu əvəzsiz idi. Həmin dövrün tanınmış müğənnilərindən Hafiz Haşımın, kamança və ud çalan Mirzə Məhərrəmin, ud çalan Məhəmməd Möminin, dördtelli tanbur çalan Şahsuvarın, Kamançeyi Məsumun, tanbur çalanlardan ustad Sultan və Mirzə Həsənin, müğənni və kanon çalan təbrizli Hafiz Məclisinin adlarını çəkə bilərik (Süleynamov, 2018). Həmçinin məşhur türk səyyahı Evliya Çələbi bu dövrdə Təbrizin məşhur sənət adamları içərisində Mirzə bəyin adını əsərində qeyd etmişdir. Mirzə bəy 4 hissədən ibarət risalənin müllifidir. O, əsərində musiqinin şəfaedici xüsusiyyətindən danışır, musiqi avazları və ritm məsələlərinə toxunur. Dövrün gerçəkliyini obyektiv əks etdirmək üçün Qərbi Avropa səyyah gündəliklərinə müraciət etməyi vacib hesab edirik. Biz bu məqaləmizdə musiqinin inkişaf tarixi, janrları və ya ritmləri məsələlərindən bəhs etməyəcəyik, onun Azərbaycan xalqının mənəvi həyatında oynadığı rolunu əks etdirən məlumatlara diqqət yetirəcəyik.

Azərbaycanda XV-XVII əsrlərin mədəni yüksəlişi fonunda incəsənət də inkişaf edirdi: istər mənbələrin verdikləri məlumatlar, istər arxeoloji tədqiqatların nəticələri, istərsə də indiyədək qorunub saxlanmış bəzi maddi-mədəniyyət nümunələri – memarlıq abidələri üzərindəki kitabələr, daş, ağac və kəc üzərində oymalar, şüşə məmulatları, bədii parça və tikmələr, xalça nümunələri də bunu sübut edir. Yazılı və maddi mənbələr göstərir ki, Azərbaycanda bu dövrdə miniatür rəssamlığı, dekorativ və tətbiqi sənət növləri çoxəsrlik ənənələrə əsaslanırdı və müəyyən regional özəlliklərə malik idi. Hələ XIII əsrdən başlayaraq Azərbaycan Şərqin mühüm miniatür rəssamlığı mərkəzlərindən biri kimi təşəkkül etməyə başlamışdı (Qasımov, 2008). Şamaxı, Bakı və Təbriz miniatür məktəbləri isə XV-XVII əsrlərdə çox məşhur idi (Kərimov, 1980). Bu dövrün Azərbaycan hökmdarları, xüsusilə Səfəvi şahları ölkədə incəsənətin inkişafına xüsusi diqqət yetirir, bu sənətin nümayəndələrinə himayədarlıq edir, hətta özləri də (Şah I İsmayıl, Şah I Təhmasib) xəttatlıqla məşğul olurdular (Qasımov, 2008). Təsadüfi deyil ki, "I Şah İsmayılın təşəbbüsü ilə Bağdad, Herat, Şiraz, İsfahan rəssamları Təbrizə toplaşıb öz sənətkarlıqlarını nümayiş etdirirdilər. Təbriz saray kitabxanası isə miniatür məktəbinin mərkəzinə çevrilmişdi" (Onullahi, 1982). Səfəvi ustaları bütün Şərq ölkələrinə Səfəvi sənətini yaymaqla məşğul idilər. Qeyd etmək lazımdır ki, bu ənənə Səfəvilər dövlətində başlamamışdı. Səfəvilər özlərindən əvvəlki Ağqoyunlu dövlətində mövcud olan nəhəng incəsənət istehsalçılarının varisləri idilər (Nəsibova, 2018). Eyni cəhətləri dekorativ sənət üçün söyləmək olar. Azərbaycanın dekorativ-tətbiqi sənət növləri (mozaika, divar naxışları,

keramika, ağac və şüşə məmulatı, zərgərlik, bədii parça, xalçaçılıq) bu dövrdə çox yüksək səviyyədə olub inkişafının tərəqqi mərhələsini yaşayırdı, desək, yanılmarıq. Adı çəkilən sənət növü nümunələri – istər müxtəlif təyinatlı qablar, istərsə də parça və ya xalça olsun, təkcə məişət tələbatını ödəmirdi, eyni zamanda estetik zövqü də oxşadığından, tam hüquqlu sənət əsəri sayıla bilər.

Lakin mütəxəssislər XVII əsrdə Azərbaycan incəsənətinin durğunluq mərhələsinə daxil olduğunu, bədii ənənələrin unudulması prosesinin başladığını qeyd edirlər (Kərimov, 1980; Qasımov, 2008). Görünür ki, bu hadisədə bir amil deyil, müxtəlif yönlü proseslər rol oynamışdır. Onların sırasında hərbi-siyasi amillər, dövlət sistemindəki ziddiyyətlər, imperiya daxilində müxtəlif siyasi və etnik qruplar arasında toqquşmalar, əvvəlki yüzillikdə baş vermiş Səfəvi-Osmanlı müharibələrinin ağır iqtisadi və sosial nəticələri, ələlxüsus şəhər əhalisinin intensiv azalması, əhali miqrasiyaları, şəhər ticarəti və mədəniyyətinin ümumi durğunluğu kimi məqamlar qeyd oluna bilər. Şübhəsiz, sadaladığımız amillər incəsənətin müxtəlif sahələrinin inkişafına və ümumiyyətlə Azərbaycanın mədəni potensialına zərərli təsir etməyə bilməzdi (Qasımov, 2008).

Azərbaycan incəsənətinin bu mərhələdə inkişaf göstəriciləri, baş verən dəyişikliklər Avropa səyyahlarının əsərlərində də bu və ya digər dərəcədə əks olunmuşdur. Doğrudur, bu məlumatlar o qədər də geniş deyil, bu səbəbdən onları digər mənbələrin – maddi mənbələrin məlumatları ilə müqayisə edərək yararlanmağa çalışacağıq.

### 1-Azərbaycanın musiqi sənəti Avropa səyyahlarının gündəliklərində

Qərbi Avropa səyyahlarının gündəliklərində Azərbaycan musiqisi haqqında ən müxtəlif məlumatlara təsadüf olunur. Musiqiyə dair ən çox məlumat vermiş səyyahlar isə Azərbaycanın müxtəlif bölgələrində təşkil olunmuş saray ziyafətlərində, müxtəlif mərasimlərdə iştirak etmiş İosafat Barbaro, Entoni Cenkinson, Adam Oleari, Jan Şarden, Pietro della Valle, Mikele Membre və Yan Streys olmuşlar.

Bu məlumatlardan bəlli olur ki, orta əsrlərdə Azərbaycan əhalisinin gündəlik həyatında və bayramlarında, həmçinin bəzi mərasimlərində musiqi önəmli yer tuturdu. Heç bir ziyafət, qonaq qaşılama mərasimi, toy, bayram, xüsusilə Novruz bayramı musiqisiz və rəqssiz ötüşmürdü. İosafat Barbaro Ağqoyunlu hökmdarı Uzun Həsənin sarayında onun şərəfinə verilmiş ziyafəti belə təsvir edir: “Şahın hüzuruna getdiyim birinci gün şərqiçilər və çalğıçılar onun yanında idilər. Bu çalğıçıların yarım metrdən bir az çox uzunluqda alətləri olub onun incə ucunu yuxarıya doğru tutmuşdular. Bu alətdən başqa ud, kamança, çalpa və tulum da var idi.

Çox gözəl çalırdılar" (Barbaro, 2005). Adam Oleari Şamaxı xanı tərəfindən qərbli qonaqların şərəfinə verilmiş ziyafətdə bol nemətli gözəl süfrəni təsvir etməklə yanaşı, Azərbaycan musiqisi, musiqi alətləri, rəqsi haqqında da yazır: "Ziyafət zamanı müxtəlif alətlərdə mahnılar çalınırdı və ifa olunurdu və bu musiqi qəribə bir harmoniya təşkil edirdi; bundan əlavə iki oğlan uşağı bir neçə qəribə rəqs edib ətrafdakıları əyləndirirdi. Beləliklə, biz həmin gün çəkdiyimiz bütün yorğunluqdan sonra elə bir nəşə aldıq ki, özümüzü bu dünyanın cənnətinə düşmüş hesab etdik" (Oleariy, 1870). Qeyd etmək lazımdır ki, Şərq musiqisi, daha dəqiq desək, Azərbaycan musiqisi və ifalar avropalılara yad, həm də bir az qəribə gəlmişdir. Bu da Şərq və Qərb mədəniyyətlərinin ayrı məcrada inkişaf etməsi ilə əlaqədar olmuşdur. Lakin bu səyyahlar ifa olunan musiqiləri dinləyərək onlara özünəməxsus qiymət verməyi özlərinə borc bilmişdilər.

XVII əsr fransız səyyahı olan Jan Şarden Azərbaycanda müxtəlif mərasimlərdə iştirak etmiş və bu mərasimlərin musiqi və rəqslə müşayiət olunduğunu qeyd etmişdir. O, İrəvanda olduğu zaman pəhləvanların güləş oyununu izləmiş və səyahətnaməsində bəzi qeydlər aparmışdır. Jan Şarden yazırdı: "meydana... qiymətli xalılar sərildi.. xeyli böyük musiqiçi, müğənni və rəqqasə dəstəsi səhnəyə daxil oldu." Səyyah məlumatın davamında musiqiçi dəstəsinin iki saatdan artıq oxuyub çaldıqlarını bildirmişdir. O, Azərbaycanda "bütün oxunan mahnıların kəlamlarının nəzmlə" olduğunu, əhalinin "bütün ziyafət və şadlıq məclislərində" çalıb oxuduqlarını yazmışdır (Tavernye, 1336). Eyni məlumatı digər səyyahlar da öz əsərlərində qeyd edirlər.

Musiqi haqqında məlumat verməyə davam edən Şarden onların kişilərdən ibarət olduğunu yazır. O bildirir ki, "kişilər çox yaxşı xanəndədilər. Onların hulqumundan çıxan səs qüvvətli və zil"dir. Səyyah rəqqasələrin də mahnı oxuduqlarını yazmışdır, lakin onların səsinin kişilərin səsi kimi qüvvətli olmadığını bildirmişdir. Şarden qadınların ifalarını çox bəyənməsə də, rəqslərini bəyəndiyini, rəqqasələrin "çevik, sürətli və məharətli" olduqlarını və bundan çox heyrətləndiyini dilə gətirmişdir (Həsənalıyev, 2005). Məlumatlardan göründüyü kimi, şərq musiqisi və rəqsləri avropalıların diqqətini özünə cəlb etmiş, hətta onları valeh etmişdi.

Səyyah gündəliklərindəki məlumatlar işərisində fərqli ziyafətlərdə, toy və bayramlarda səslənən musiqilərdən əlavə hərbi musiqi barədə də məlumat diqqətçəkicidir. Bu məlumatı biz Adam Olearinin səyahətnaməsindən əldə edirik. Onun əsərində hərbi musiqi ilə bağlı məlumatlar maraqlıdır: "Burada olarkən yad ölkənin səhra (döyüş – S.M.) musiqisini də eşitdik. Bizim qabağımızca at üstündə dörd musiqiçi gedirdi. Onlar növbə ilə, zahiri görünüşcə tütəyə bənzəyən, uzunluğu dörd qulaca yaxın, uc tərəfi isə enli mis alətdə çalırdılar. Bu alət *kerrenai* (qara ney – S.M.) adlanırdı. Onu çalanda ucunu göyə tuturdular. Bundan başqa sadə tütəkçilər,

həmçinin bir neçə təbilçi də var idi. Onlar uzunsov güvəcə bənzəyən təbillərini yəhərdən asmışdılar. Bundan başqa bir neçə uzun əyri buynuzlara bənzəyən alətləri, qavalları və s. olan musiqiçilər də vardı ... Şəhərdən dörddə bir mil aralıda, yəqin ki, ən güclü adamın belə bir bayrağı çətinliklə apara bildiyi, olduqca uzun şüvüllərdə beş bayrağı olan 2000 nəfərlik piyada qoşun dayanmışdı; burada da yenə iki böyük sımbalada ifa olunan xüsusi musiqi elə səslənirdi ki, sanki iki böyük mis boşqabları bir-birinə vururdular və həmçinin tütəklərdə və digər qəribə alətlərdə də çalırdılar" (Oleariy, 1870). Daha bir maraqlı məlumat 1617-1623-cü illərdə Səfəvi dövlətində yaşayan Pietro della Valleyə məxsusdur. O, şah Abbasla görüşdüyü şam yeməyi zamanı divanxanada "musiqi alətləri ilə bir-birindən aralı dayanan bəzi musiqiçilər" haqqında bəhs edir. Valle: "onların ifa etmək və oxumaq üçün musiqi alətləri - skripkalar (kamança – S.M.), sımbala və başqaları var idi, lakin [onlar] formaca bizimkindən çox fərqli idi… alətlərdən bəzilərinin bizimkinə bənzər hissəsi onun gövdəsi yox, simləridir". Səyyah bu alətin səsini çox da bəyənməmiş, "qulaqlara xoşagəlməz səs verir" deyə yazmışdı. Azərbaycanın musiqi alətləri diqqətini çəkdiyi üçün Pietro della Valle məlumatın davamında "onları İtaliyada göstərmək üçün özümlə aparacağam" deyə qeyd etmişdi (Valle, 1843). Şam yeməyindən sonra şah Abbas yenidən Pietro della Valleni yanına çağırtdırmış və onların söhbəti zamanı musiqiçilər sakit səslə musiqi ifa etmişlər. Bu, səyyahın diqqətindən yayınmamış, hətta xoşuna gəlmişdi. Səyyah yazırdı: "Musiqiçilər indi... çox alçaq şəkildə oxuyub, ifa edirdilər və musiqi bizim danışıq və söhbətimizə mane olmurdu" (Valle, 1843). Yuxarıda verilən nümunələrdən də göründüyü kimi, səyyahların məlumatları Azərbaycan əhalisinin musiqili, təmtəraqlı, dəbdəbəli və zövqlü bayram əhval-ruhiyyəsindən xəbər verir. Azərbaycanda şah sarayından tutmuş sadə xalqa qədər heç bir ziyafət, heç bir bayram, heç bir mərasim musiqisiz ötüşməmiş, əhəmiyyətli faktorlardan biri olmuşdur.

## 2-Azərbaycanın orta əsr təsviri sənəti Avropa səyyahlarının gündəliklərində

Təsviri sənət sahələri içərisində mənbələrdə daha geniş təsvirini tapmış olanı *daşişləmə sənəti* idi ki, onun da başlıca növü həkkaklıq sayıla bilər. Həkkak başlıca olaraq, qəbirüstü abidələr (başdaşı, sənduqə) və inşaat hissələri (dekorativ bəzək ünsürləri, kitabə və s.) düzəldirdi (Mustafayev, 1999). Daş üzərində oyma üsulu geniş yayılmışdı və avropalıların müşahidələrindən də bəlli olur ki, bu, adətən qəbirüstü abidələrdə: başdaşı, sinədaşı, sənduqə, türbə və günbəzlərdə tətbiq olunurdu. Əksər hallarda yonma daşdan olan bu abidələr orada dəfn olunmuş mərhumun şəxsiyyətini, abidənin tarixini, memarın adını verən epitafiya və kitabələrlə bəzənirdi. Müsəlman həkkaklığının əsasını isə qrafik yazı, üslublaşdırılmış həndəsi və nəbati

nəqşlər təşkil edirdi. Ona görə də həkkaklıqla məşğul olanların əksəriyyəti həm də gözəl xəttat olmalı idilər.

Yazılı mənbələrin məlumatları göstərir ki, Azərbaycanda orta əsrlərdə dekorativ-tətbiqi sənət növləri arasında mozaika da geniş yayılmışdı. Məsələn, Adam Oleari Ərdəbildəki məqbərələrdən birini – Şeyx Səfi əd-Dinin atası Seyid Cəbrayılın məqbərəsini təsvir edərkən yazır: "Məqbərə böyük bir bağçanın içində dairəvi bina şəklində tikilib, rəngli şüşələri olan pəncərələrlə əhatələnib ..." (Oleariy, 1870).

Adam Olearinin və Yan Streysin Azərbaycan memarlıq nümunələrinin təsvirini verən digər məlumatlarından bəlli olur ki, yerli sənətkarlar şəbəkə sənətinin də sirlərinə yaxından bələd idilər. Şəbəkə üsullu ağacişləmə sənəti Azərbaycanın dekorativ-tətbiqi sənətinin ən nəfis sahələrindən idi.

XV-XVII əsrlər Avropa müəlliflərinin nisbətən geniş məlumat verdiyi digər incəsənət sahəsi *zinət əşyalarının istehsalı* hesab oluna bilər: bu sahə metalişləmə ilə üzvi surətdə bağlı idi və bədii metal sənətinin Azərbaycanda yüksək inkişaf səviyyəsinə çatdığından xəbər verir. Zərgərlik həm gümüşbəndlik sənətini, həm də cəvahirsazlığı özündə ehtiva edirdi və mürəkkəb bir sənət sahəsi idi. Avropalıların diqqətini çəkən əsasən Azərbaycan qadınlarının zinət əşyaları idi. Məsələn, Adam Oleari yazır: "Onların qadınlarının boğazları və buxaqları bir neçə cərgə mirvari və ya boyunbağı ilə bəzənmiş olur; demək olar üzləri büsbütün mirvarilərlə və zinət əşyaları ilə örtülür ... Gənc qızlar isə burunlarının sağ dəliyindən də bahalı qaşlarla bəzənmiş halqa asırlar; barmaqlarında çoxlu üzük, biləklərində enli qolbaqları olur" (Oleariy, 1870).

İstər bu, istərsə digər təsvirləri ümumiləşdirib XV-XVII əsrlərdə zərgərliyin inkişafı ilə bağlı belə qənaətə gəlmək olar: qadın zinətlərinin başlıca tipləri baş bəzəkləri, qulaq bəzəkləri, boyun-sinə bəzəkləri, qol-bilək və barmaq bəzəkləri, yaxa bəzəkləri, bel bəzəkləri və libas bəzəkləri olmuşdur. Bu tipoloji təsnifatın XIX-XX əsrin əvvəllərindəki tiplərlə müqayisəsi Azərbaycanda həm zərgərlik sənətinin, həm geyim mədəniyyətinin əsrlər ərzində formalaşdığını və böyük ənənələrə malik olduğunu sübut edir (Mustafayev, 1999).

Azərbaycanda dekorativ-tətbiqi sənətin geniş yayılmış sahələri içərisində *bədii parça* istehsalını və *xalçaçılığı* da xüsusi qeyd etməliyik, çünki bu sahələr orta əsrlərdə incəsənətin yüksək inkişaf etmiş sahələrinə aid edilir və miniatür sənəti ilə də sıx bağlılığı var. Məsələn, "qələmkarlıq üsulu ilə parça üzərinə bəzək vurulması tətbiqi sənətin, xüsusilə ənənəvi nəqqaşlığın mühüm sahəsi idi", bu sənətdə həm süjetli, həm də ornamental nəqş motivlərindən geniş istifadə olunurdu. Qələmkar istənilən rəsm və ya nəqşin kontur xətlərini ütmə yolu ilə

ucu qaraldılmış sivri *qələm* vasitəsilə çəkir, üzərini boyaya batırılmış qarğı qələmlə işləyirdi (Mustafayev, 1999). İpək parçaların qızılı sapla - “güləbətin”lə işlənməsi də geniş yayılmışdı və belə parçalar çox baha satılırdı. Jan Şardenin yazdıqlarına görə, “dünyanın ən bahalı parçası olan” güləbətinli zərbaftanın təxminən bir metri (Şardendə bir “gəz”i – 95 sm) 50 tümən idi; müqayisə üçün deyək ki, adi taftanın (yəni güləbətinlə işlənməmiş ipəyin) 8 yardı (7,28 m) cəmi bir pesoya olurdu (Geydarov, 1999). Azərbaycanda bu dövrdə adı çəkilən dekorativ-tətbiqi sənət sahələrinin geniş yayılması avropalı səyyahların dolayı məlumatlarından da bəlli olur. Yan Streys yerli feodalların hətta at yəhərlərinin də bahalı parçalardan, qızılı sapla işlənmiş və cəvahirlərlə bəzədilmiş materiallardan olduğunu yazır: “Şamaxı xanı əla və bahalı ərəb atinin üstündə əyləşmişdi; atın yəhəri bahalı toxunma və qızılla işlənmiş parçadan idi, parça mirvarilərlə və bahalı daşlarla bəzədilmişdi” (Streys). Şamaxıda Adam Olearini qəbul etmiş xan və onun əshabələri də səyyahı heyrətləndirəcək dərəcədə bahalı geyimdə olmuşdular: onların əynində zərbafta paltar var idi, çalmaları isə qızıl və gümüşlə işlənmişdi (Oleariy, 1870). Azərbaycanda nadir kitabların, əlyazmaların da ornamentlərlə işlənməsi, cild üzlərinin qızılı parça ilə örtülməsi də bu dövrdə geniş yayılmışdı. Adam Oleari Şeyx Səfi məqbərəsinin kitabxanasında rast gəldiyi kitabları aşağıdakı kimi təsvir edir: “Tarixi kitabları şəkillər bəzəyirdi. Cildləri qırmızı dəridən idi, qızıldan tökmə gül və yarpaq təsvirləri ilə bəzədilmişdi. Kitab azərbaycanlılar arasında çox yüksək qiymətləndirilirdi (Oleariy, 1870).

*Xalçaçılıq sənəti* Azərbaycanın dekorativ-tətbiqi sənət sahələri içərisində ən məşhuru idi. Demək olar ki, bütün səyyahların əsərlərində Azərbaycan xalçaları ilə bağlı məlumatlar var və bu, sahənin orta əsrlərdə yüksək inkişafını müəyyən etməyə imkan verir. Azərbaycanlıların məişətində xalçanın oynadığı rolun nə qədər böyük olduğunu bilirik, amma bizim üçün önəmli olan – bu sahənin, daha doğrusu, xalçanın özünün bir incəsənət əsəri olaraq mənbələrdəki xarakteristikasıdır.

Ümumiyyətlə, orta əsr Azərbaycan xalçaçılıq sənətində ornamental və süjetli xalçaların yaranması və geniş miqyasda toxunaraq şöhrət tapması xüsusi bir mərhələ hesab olunur (Alizade, 1956). XVI əsr isə süjetli xalçaçılığın çiçəklənməsi dövrüdür.

Xalçaların tərtibatında həndəsi, nəbati, heyvani və insani motivlərdən geniş istifadə olunduğundan, onun hazırlanmasında miniatürçü rəssamlar da iştirak edirdi və Azərbaycan xalçası əsl incəsənət əsərinə çevrilirdi. Ornamental və süjetli xalçaçılığın başlıca mərkəzləri Şamaxı, Bakı, Təbriz idi. Adətən bu xalçalar döşənmirdi, divardan asılırdı. Məsələn, Adam Oleari Şamaxı xanının qonağı olarkən, onun və missiyasının şərəfinə verilmiş ziyafətin

keçirildiyi otaqda divarlardan cazibəli şəkillərin və gözəl toxunuşlu xalçaların asıldığını yazır (Oleariy, 1870). Xalçaçılıq dekorativ tətbiqi sənətin ən güclü sahəsi olub, praktik əhəmiyyətini sonrakı əsrlərdə də qoruyub saxlaya bilmişdi (Mustafayev, 1999).

**Nəticə**

Beləliklə, Azərbaycan mədəniyyətinin tərkib hissəsi olaraq incəsənətin ən müxtəlif sahələrinin, o cümlədən XV-XVII əsrlər Avropa müəlliflərinin əsərlərində öz əksini tapmış dekorativ-tətbiqi sənət və musiqisinin, özündə həm yerli ənənələri saxlamaqla regional, həm də Ümumislam və Ümumşərq təsirini daşımaqla sinkretik mədəniyyətin inkişafında əhəmiyyətli rolu və yeri olmuşdur. XVII əsrdən etibarən Azərbaycan mədəniyyəti müxtəlif səbəblər üzündən müəyyən durğunluq dönəminə daxil olduğundan, bu öz əksini incəsənətin adlarını çəkdiyimiz sahələrində də büruzə verirdi.

Musiqi ilə bağlı məlumatları ümumiləşdirsək, görünür ki, Azərbaycanda bu dövrdə başlıca çalğı alətləri – simli musiqi alətləri (bura saz, tar, kamança, ud və d. daxil idi), nəfəsli musiqi alətləri (ney, şeypur, qara ney, zurna, balaban) və zərb musiqi alətləri (dəf, nağara, təbil) olmuşdur. Adları çəkilən musiqi alətləri, bir tərəfdən Azərbaycanın orta əsr musiqisinin ənənələrinin indiyədək saxlandığını, digər tərəfdən ağacişləmə sənətinin musiqi alətləri istehsalı növünün də geniş yayıldığını göstərir.

## Ədəbiyyat

Alizade, A. (1956). *Sosialno-ekonomicheskaya i politicheskaya istoriya Azerbaydjana v XIII-XIV vekakh*. Izdatelstvo Akademii nauk Azerbaydjana. SSSR.

Babayeva, Ə. (26-27 oktyabr 2017). "İslam musiqi ənənəsi müsəlman mədəniyyətinin eyniyyət nişanı kimi". *Qloballaşan dünyada musiqi ənənələri mövzusunda keçirilən beynəlxalq elmi-praktik konfransın materialları*, Bakı.

Barbaro, J. (2005). *Anadoluya ve İrana seyahat* (T. Gündüz, Çev.). İstanbul, Yeditepe Yayınevi.

Dadaşova, R. (2003). *Səfəvilərin son dövrü (ingilisdilli tarixşünaslıqda)*. Nurlan.

Della Valle, P. (1843). *Viaggi di Pietro della Valle, il pellegrino: descritti da lui medesimo in lettere familiari all'erudito suo amico Mario Schipano, divisi in tre parti cioè : La Turchia, La Persia, e l'India, colla vita dell'autore,* Volume primo. G. Gancia.

Geydarov, M. (1999). *Torgovlya i torgovıye otnosheniya Azerbaydjana v pozdnem srednevekovye.* Elm.

Həsənalıyev, Z. (2005). *Səfəvi dövləti XVII əsrdə: (Avropa səyyahlarının məlumatı əsasında)* [Tarix elmləri doktoru dissertasiya]. Bakı Dövlət Universiteti.

Kərimov, K. (1980). *Azərbaycan miniatürləri,* İşıq.

Qasımov, X. (2008). *Orta əsrlərdə Azərbaycan mədəniyyəti*. Aspoliqraf.

Mustafayev, A. (1999). *Azərbaycanda sənətkarlıq (Tarixi-etnoqrafik tədqiqat)*. Altay.

Nəsibova, A. (2018). Səfəvi incəsənəti və qulamlar Qərb alimlərinin gözü ilə. *Risalə. Araşdırmalar toplusu. 15-ci kitab,* Elm və təhsi nəşriyyatı.

Oleariy, A. (1870). *Podrobnıy otchet o poyezdke golshtinskogo posolstva v Moskoviyu i Persiyu v 1633, 1636 i 1639* gg. (P. Barsov, perevod s nemetskogo), sostavlennıy sekretarem posolstva A. Oleariyem. Moskva, Universitetskoye izdatelstvo.

Onullahi, S. (1982). *XIII-XVII əsrlərdə Təbriz şəhəri (sosial-iqtisadi tarixi)*. Elm.

Streys, Y. (1935). *Tri puteshestviya* (per. E. Borodina). Sotsegiz.

Süleynamov, N. (2018). *Azərbaycan Səfəvi dövləti 1501-1736-cı illər.* İqtisad Universiteti nəşriyyatı.

Tavernye, J. (1957). *Səfərname-ye Tavernye,* (Ə.T. Nuri, farsca tərc.). İkinci nəşri Çapxana-ye fərvin.